# Natamam ailələrdə yaranan problemlərin pedaqoji prosesin inkişafına təsiri

**Günel Orucova**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Bakı Dövlət Universiteti*
**E-mail:** guneloruj@gmail.com

**Rəyçilər:** ped.ü.f.d., dos. N.B. İmamverdiyeva,
ped.ü.f.d., dos. M.A. Quliyeva

**Açar sözlər:** uğursuz ailə, cəmiyyət, yeniyetmə, ailə münasibətləri
**Ключевые слова:** несчастные семьи, общество, подростки, семейные отношения
**Key words:** the unfortunate family, society, teen, family relationships

Natamam ailələr yeniyetmənin sosaillaşmasında və şəxsiyyətinin formalaşdırılmasında yaranan neqativ təsirləri aradan qaldırmaqda çətinlik çəkirlər. Çünki bu təsirlər ailə münasibətlərini daha da mürəkkəbləşdirir. Belə ailələrdə uşaqlar üzərində nəzarət zəifləyir, onlara dərslərinin hazırlaşmasında müntəzəm kömək göstərilimir. Ailə daxilində və ailənin ətrafında yaranan gərginlik də yeniyetmənin hələ tam bərkiməmiş mənəviyyatına güclü zərbə vurur. Valideyinlər arasında münasibətlərin gərginləşməsindən yaranan ailə münaqişələri, valideyinlərin bir-birini uşağın gözü qarşısında təhqir etməsi halları təkcə natamam ailələr üçün spesifik deyil, bu hallara digər ailə tiplərində də rast gəlmək mümkündür. Demək olar ki, belə hallar uşaqların, xüsusilə yeniyetmələrin əxlaqının pozulmasına gətirib çıxarır. Bu da onu deməyə əsas verir ki, heç də ailədə mövcud olan ailə iqlimi ailənin tipindən asılı olmur və ailə iqlimini formal yox, mahiyyətinə görə qiymətləndirmək lazımdır.

Ailədə mənəvi əlaqələrin və ünsiyyətin pozulması uşağın kənar təsirlərə qapılması prosesini artırır. Ailədə ünsiyyət tələbatının ödənilmədiyini görən şagird bu ünsiyyətin yerini doldurmaq üçün küçə mühitinə üz tutur ki, bu da gələcək fəsadlar üçün şərait yaradır.

Yeniyetmələrin milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə olunması, onlarda lap uşaqlıqdan bu duyğuların aşılanması ilə bağlıdır. Belə ki, ailə münasibətlərinin əsasında duran ailənin mənəvi mədəniyyəti cəmiyyətin mənəvi mədəniyyətinin inikasıdır və "sosial vəzifə yerinə yetirməklə ailə öz mədəni, sosial və mənəvi səviyyəsinə uyğun şəxsiyyət formalaşdırır" (1, 106).

Müasir Azərbaycan ailəsində mövcud olan sosial-psixoloji problemlərin həll olunmaması və ya bu problemlərin daha da dərinləşməsi natamam ailələrin sayının artmasına münbit şərait yaradır. Natamam ailələrin mövcudluğu və onların sayının əvvəlki illərə nisbətən artması faktı bütün zamanlarda həm psixoloqları, həm pedaqoqları, həm də filosofları dərindən düşündürmüşdür. Ümumiyyətlə, cəmiyyətin sağlam sosial-iqtisadi baza üzərində inkişafında ailənin həlledici rolunu nəzərə alsaq, bu gün ümumilikdə bəşəriyyət ailə institutunun getdikcə dağılmasından ciddi narahatlıq keçirir. Belə ki, cəmiyyətdəki həm demoqrafik, həm sosial, həm mənəvi, həm də iqtisadi sabitliyin bərqərar olması oradakı ailələrin vəziyyətindən birbaşa asılıdır. Əgər cəmiyyətdə mövcud olan ailələr ailədaxili münasibətlər baxımından sabitdirsə, bu həm də dövlətin güclü və möhkəm olmasına dəlalət edir. Ancaq, təəssüf ki, natamam ailə problemi müasir dövrümüz üçün real hadisədir və belə ailələrin sayının durmadan artması alimlərimizi ciddi narahat edir. İnkaredilməz faktdır ki, bu gün natamam ailələrin sayının

artması artıq regional yox, qlobal problem statusu qazanmışdır. Cəmiyyətin onurğa sütunu sayılan ailələrin bir çoxunun uğursuzluğa düçar olması orda böyüyən uşaqların tərbiyəsinə və psixoloji durumuna da güclü təsir göstərir.

Hər bir insanın həyatının sonrakı mərhələlərində ailə dəyərlərinə münasibəti, ailə daxilində üzərinə götürdüyü məsuliyyət, hər bir ailə üzvünə qayğıkeş və ya biganə münasibəti onun hansı ailədə böyüyüb tərbiyə almasından çox asılıdır. İnsan həyatının bütün cəhətləri – onun xarakteri, hissləri, məsuliyyəti, yaxşı və pis adətləri, çətinlklərə sinə gərmək qabiliyyətləri, onun xoşbəxtliyi, hər şeydən əvvəl uşaqlıqda formalaşır. Onun uşaqlığı haqqında işıqlı xatirələri çətin anlarda onu möhkəmləndirə və isidə bilər. Əks təqdirdə, xoşbəxt uşaqlıqdan məhrum olanlar bu çətinlikləri heç cür aradan qaldıra bilməz.

Sağlam ailə, xoşbəxt həyat, rəvan inkişaf ilk növbədə ailə psixologiyası ilə sıx surətdə bağlıdır. Əgər ailədaxili münasibətlərdə sağlam mühit mövcuddursa o ailədə hər şey qaydasındadır. Bu baxımdan yeniyetmələrin gələcək inkişafı və onların gələcəkdə əsil vətəndaş, insan kimi böyüməsi hansı tip ailəldə tərbiyə almasından çox asılıdır. Yeniyetmənin fiziki cəhətdən sağlam, əqidəli, mərd, ağıllı böyüməsi onların sinir sisteminin pozulub-pozulmamasından asılı olur. Ailədaxili münaqişələrin getdikcə intensivləşməsi və qəddarlıq çalarlarının artması ilə oradakı uşaqların sinir sistemi pozulur. Hər gün ata-ana qarşıdurmasının şahidi olan yeniyetmədə valideyinlərinə qarşı nifrət, gələcəyi haqqında qorxu hissi yaranır. Ata ilə ana arasında nikah pozulduqda isə bu problem onlar üçün ağır faciəyə çevrilir. Yeniyetmələrin bundan sonrakı həyatı psixoloji cəhətdən ağır olur. Onlar indi əvvəlkinə nisbətən daha çox ata-ana qayğısına ehtiyac duyurlar (3, 78).

Demoqrafik ədəbiyyatın təhlilindən də aydın olur ki, boşanmaların yeniyetməlik dövrünə təsadüf etməsi və bu dövrün şəxsiyyətin formalaşmasının ən mürəkkəb dövrü olması ailədə sosial iqlimin kəskinləşməsini daha da artırır. Tədqiqtçılardan C.Vallerşteyn və C.Kelliyə görə, boşanmanın acı nəticələri yeniyetmənin mənəvi inkişafına, onun özünə, ata-anasına və yaxın qohumlarına verdikləri qiymətə mənfi təsir göstərir. Bu dövrdə ailə problemi ilə bağlı onlarda əmələ gələn inamsızlıq, qorxu hissləri onların ətrafdakılar ilə ünsiyyətində də öz əksini tapır, belə ki, bu tip uşaqlar həm ətrafdakılardan, həm də öz həmyaşıdları ilə ünsiyyətdən qaçır, aqressiv olur, həm təlim, həm də davamiyyətdə akademik və əxlaqi göstəriciləri aşağı düşür. Ailə daxilindəki sosial problemlərdə boşanmanın növü də öz təsirini göstərir. Bu zaman müəllimin onu başa düşməməsi və onun üçün ağır olan belə məqamda tez-tez onu danlaması yeniyetməni psixi depressiyaya salır. Hadisələri kənardan izləyən uşaqlar bir çox hallarda bu münaqişənin iştirakçısına çevrilirlər. Belə hallarda uşağın ata-ana arasında istər-istəməz seçim etməsi onu mənəvi cəhətdən əzir. Problemli vəziyyət nəticəsində uşaq təlimdən uzaqlaşır, dərdini heç kimə deyə bilmir, dərsdə müəllimə diqqətlə qulaq asmır, yoldaşları ilə tez-tez mübahisə edir. Belə hallar şagirdin ətraf aləmdən - həm ailədən, həm də məktəbdən uzaqlaşmasına şərait yaradır. Boşanmadan sonra da bir-birindən "azad olmuş" valideyinlərdən fərqli olaraq uşaq üçün ən ağrılı, ən çətin dövr başlayır. Bir çox hallarda ana ilə qalan uşaqların tərbiyəsində ata iştirak etmir. İqtisadi çətinliklərlə üzləşən ananın isə uşaqların təlim-tərbiyəsi ilə məşğul olmağa vaxtı qalmır. Atanın boşanmadan sonra uşaqlar ilə ünsiyyət saxlaması da çətinləşir, belə ki, uşaqları ilə görüşən ata, məcburən ana ilə görüşdükdə ixtilaflar yenidən baş qaldırır. Tədqiqatlar göstərir ki, boşanmış ataların 10%-i uşaqların tərbiyəsində fəal iştirak etsələr də, keçmiş həyat yoldaşları ilə baş verən münaqişələr bir çox çətinliklər yaradır. Ataların 30%-i uşaqlar ilə müəyyən əlaqə saxlasalar da, keçmiş həyat yoldaşları ilə münasibətlərindəki gərginlik özünü göstərir. Ataların 60%-i isə demək olar ki, uşaqları ilə görüşmür və onların tərbiyəsində iştirak etməyib öz atalıq borcunu ancaq

aliment ödəməkdə görür. Beləliklə də, ailədə yaranmış problemlər buradakı uşaqların həm sosial, həm də mənəvi-psixoloji inkişafında mənfi rol oynayır. (5, 37)

İnkaredilməz faktdır ki, bu gün dünyada gedər iqtisadi böhran Azərbaycan ailəsindən də yan keçmir. Bunu daha çox ailələrin iqtisadi durumundan hiss etmək olar. Ailələrin dolanışığının çətinləşməsi, həyat tərzinin pisləşməsi, valideyinlərin işsiz qalması, yaxud ikisindən birinin xəstələnməsi və ya vəfat etməsi, qaçqın, köçkün həyat tərzi ailənin ahəngdar inkişafını pozur. Bu çətinlikləri bütün qəlbi ilə hiss edən yeniyetmədə bu dövrün yaş xüsusiyyətlərinin çətinlikləri ilə bərabər, həm də sinir sistemi daha tez gərginləşir. Onlarda huşsuzluq, zəiflik, tənbəllik, laqeydlik yaranır, qorxu, eşitmə, dil-udlaq, dilaltı sinirlər iflic vəziyyətə düşür. Alimlərin fikrincə, yeniyetmədə yaxşı əhval-ruhiyyə onlarda psixi proseslərin normal inkişafı üçün əsas amillərdən biridir. Ruh yüksəkliyi yeniyetmənin təlim və tərbiyə prosesinə də müsbət təsirini göstərir. Belə ki, insanın əhval-ruhiyyəsi yüksək olanda o, informasiyaları daha yaxşı qavrayır.

Hər bir ailə qarşılıqlı hörmət, nəzarət prinsipindən qaynaqlanan sağlam psixoloji iqlimə malik olmalıdır. Psixoloqların fikrincə, uğurlu və uğusuz ailələrdəki mövcud olan ailədaxili münasibətlərdəki spesifik xüsusiyyətlər burada böyüyən uşaqların tərbiyəsinə öz "möhürünü" vurur. Nümunəvi və məsuliyyətli valideyinlər öz övladlarının həyatın fərəhli yollarına çıxmaları və inamlı addımlamaları üçün onların tərbiyəsinə ciddi yanaşır, onlara düzgün davranış təcrübəsi, rəftar və ünsiyyət mədəniyyəti aşılayır, onlarda dəqiqlik, doğruçuluq, böyüyə hörmət, yaxşılıq və xeyirxahlıq, yoldaşlıq və dostluq, qayğıkeşlik, prinsipiallıq, obyektivlik, ədalət və sadəlik kimi keyfiyyətlərin inkişaf etməsi qayğısına qalır. Onların bu əziyyəti səmərəsiz qalmır, öz müsbət nəticəsini verir (2, 123).

Natamam ailələrdə problemlər övlad-valideyin münasibətlərinin soyumasına gətirib çıxarır. Öz uşaqlıq illərini yaddan çıxaran, yeniyetmə qarşısına yaşına uyğun olmayan tələblər qoyan valideyinlər onunla dost olmağa çan atmırlar və bu da yeniyetmənin qəlbində acı izlər qoyur. Zaman keçdikcə bu xatirələr onu valideyinindən getdikcə uzaqlaşdırır. O nə zaman "müstəqillik" qazanıb doğma ata evini tərk edəcəyi günü səbirsizliklə gözləyir. Çox vaxt böyüklər özlərini çox təmkinli aparır, acıqlı və ikrah doğuran davranışları ilə öz avtoritetlərini büruzə verirlər. Bu isə uşaqların və şagirdlərin ürəklərini ələ almağa mane olur (4, 102).

Əgər böyüklər uşaqlarla sıx yaxınlaşsaydılar, öz sevgilərini onlara göstərsəydilər, onların atdıqları bütün yeni addımlarda yaxından iştirak etsəydilər, hətta bəzən özləri də uşaqlara bənzəsəydilər, bu yolla uşaqların məhəbbətini və etibarını qazana bilər və onları xoşbəxtliyə doğru aparardılar. Onda onların uşaqları könüllü surətdə öz valideyinlərinin və müəllimlərinin avtoritetinə hörmət edər və onları sevərdilər. Valideyinlərlə uşaqlar arasında heç bir sərhədə və qapalılığa yol verilməməlidir. Valideyinlər öz uşaqlarının daxili aləminə girməyə, onların zövqlərini və meyillərini, hisslərini və arzularını başa düşməyə can atmalıdırlar.

**Məqalənin aktuallığı.** Natamam ailələrin mövcudluğu və onların sayının əvvəlki illərə nisbətən artması faktı bütün zamanlarda həm psixoloqları, həm pedaqoqları, həm də filosofları dərindən düşündürmüşdür. Ümumiyyətlə cəmiyyətin sağlam sosial-iqtisadi baza üzərində inkişafında ailənin həlledici rolunu nəzərə alsaq, bu gün ümumilikdə bəşəriyyət ailə institutunun getdikcə dağılmasından ciddi narahatlıq keçirir. Bu problem gələcək nəslin təlim tərbiyəsi üçün ciddi təhdid yaradır. Bu baxımdan natamam ailələrdə normal psixoloji mühitin yaradılması və təlim prosesinə mənfi təsirinin azaldılması mühüm aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə natamam ailələrdə sağlam psixoloji mühit yaratmaqla problemləri qismən aradan qaldırılması ön plana çıxarılmışıdr. Həmçinin övlad-valideyn münasibətlərində mənəvi dəyərlərin aşılanması dərin uçurumların aradan qaldırılması üçün

mühüm əhəmiyyət daşıması qeyd olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də yeniyetmələrlə iş aparan müəllim və psixoloqlar, həmçinin valideynlər istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Ağayev Ə., Rzayeva Y., Hüseynova T.M. Vahabova T.Ə. Sosial pedaqogika. Bakı: ADPU, 2008.
2. Abbasov A.N. Milli əxlaq və ailə etikası: orta ixtisas məktəbləri üçün dərslik. Bakı: Mütərcim, 2013.
3. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: ADPU-nun nəşri, 2008.
4. Əlizadə H.Ə., Mahmudova R.M. Sosial pedaqogika: Ali məktəblər üçün dərslik. Bakı: Bakı Universiteti, 2013.
5. Talıbov Y.R.,Sadıqov F.B., Quliyev S.M. Gənclərin mənəvi tərbiyə problemləri. Bakı: Ünsiyyət, 1998.


**Г. Оруджова**

## Влияние проблем возникших в неполных семьях на развитие педагогического процесса
## Резюме

Нерешенные социальные и психологические проблемы современной азербайджанской семьи создают благоприятные условия для дальнейшего увеличения числа неудачных семей. Рост числа неудачных семей, чем в предыдущие годы во все времена глубоко затрагивают психологов, педагогов и философов. Принимая во внимания решающую роль в здоровом развитие социально-экономической базы общества, развал института семьи сегодня в мире серьезная проблема.

**G. Orucova**

## Impact of problems in incomplete families on pedagogical problems
## Summary

Modern family in the social and psychological problems or problems unresolved and create favorable conditions for further deepening of the increase in the number of families has failed. Unlucky than in previous years, the growth in the number of families and their availability at all times, both psychologists, and teachers, but also deeply affected philosophers. The healthy development of the socio-economic base of society in general, taking into account the crucial role of the family in today's increasingly the collapse of the family institution in the world has been a serious concern.

**Redaksiyaya daxil olub:** 27.11.2018